JABBARLI LAW FIRM

# 2023-cü ilin II rübü üzrə Korporativ hüquqla bağlı qəbul edilmiş yeni qanunlar və qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərə dair

## BÜLLETEN

Bakı 2023

JABBARLI LAW FIRM

# APREL

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsi

Edilmiş son dəyişikliklərə əsasən, yay və qış otlaqları xırdabuynuzlu heyvandarlıq təsərrüfatlarının ehtiyacları nəzərə alınmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə inzibati-ərazi vahidləri arasında bölüşdürülür.

Yay və qış otlaqları Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin “Elektron kənd təsərrüfatı” informasiya sistemi vasitəsilə “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsində müəyyən edilmiş qaydada rayon (şəhər) icra hakimiyyəti orqanlarının qərarı ilə dövlət və bələdiyyə mülkiyyətində olan xırdabuynuzlu heyvandarlıq təsərrüfat sahibi hüquqi şəxslərə istifadəyə, digər heyvandarlıq təsərrüfatı sahibi fiziki və hüquqi şəxslərə isə yalnız icarəyə verilir.

## “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu

Ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazənin verilməsi üçün dövlət rüsumunun məbləği 50 manat müəyyən olunmuşdur.

**“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanunu**

Aşağıdakı hallardan biri və ya bir neçəsi olduqda iriqabaritli və ağırçəkili nəqliyyat vasitələri müşayiət avtomobili ilə müşayiət olunmasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin, mühafizə avtomobili ilə müşayiət olunmasına münasibətdə isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin avtonəqliyyat vasitəsi ilə müşayiət edilməlidir:

Mühafizə avtomobili ilə:

- nəqliyyat vasitəsinin eni 2,55 metrdən artıq olduqda;
- nəqliyyat vasitəsinin hündürlüyü 4 metrdən artıq olduqda;
- nəqliyyat vasitəsinin uzunluğu 24 metrdən artıq olduqda;
- nəqliyyat vasitəsinin ümumi kütləsi 50 tondan artıq olduqda;

Mühafizə və müşayiət avtomobili ilə:

- nəqliyyat vasitəsinin eni 3,5 metrdən artıq olduqda;
- nəqliyyat vasitəsinin uzunluğu 30 metrdən artıq olduqda;

- nəqliyyat vasitəsinin ümumi kütləsi 80 tondan artıq olduqda;

- hərəkət zamanı nəqliyyat vasitəsi əks istiqamətdəki hərəkət zolağını Qanunun 48.2-ci maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən hədlərdən artıq tutduqda;

- daşınma prosesində iriqabaritli və ağırçəkili nəqliyyat vasitəsinin maneəsiz hərəkətinin təmin edilməsi məqsədilə yol hərəkətinin tənzimlənməsi üzrə Qanunun 48.2-ci maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən tədbirlərin həyata keçirilməsinə zərurət olduqda.

## “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu

Son dəyişikliklərə əsasən, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dövlət sosial müdafiə fondunun sərbəst vəsaitlərini investisiyaya yönəldə bilər. İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı Azərbaycan Respublikasının Mərkəzi Bankında açılmış hesaba toplanır və onların uçotu ayrıca aparılır. İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı növbəti büdcə ilinə sərbəst vəsaitin investisiyaya yönəldilən hissəsi kimi keçirilir.

Dövlət sosial müdafiə fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirlərindən istifadə edilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

**“İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işsizlikdən sığorta fondunun sərbəst vəsaitlərini investisiyaya yönəldə bilər. İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı Azərbaycan Respublikasının Mərkəzi Bankında açılmış hesaba toplanır və onların uçotu ayrıca aparılır. İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı növbəti büdcə ilinə sərbəst vəsaitin investisiyaya yönəldilən hissəsi kimi keçirilir.

İşsizlikdən sığorta fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirlərindən istifadə edilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

JABBARLI LAW FIRM

# MAY

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

Miqrasiya Məcəlləsinə edilmiş yeni dəyişikliyə əsasən, Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşama icazəsinin əldə edilməsi üçün əsas olan halların sırasına yeni hal əlavə edilmişdir. Belə ki, nominal dəyəri azı 100.000 manat olan dövlət qiymətli kağızlarına və ya eyni həcmdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslərin investisiya qiymətli kağızlarına malik olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazənin alınması məqsədilə müraciət edə biləcəklər.

Dəyişikliklərdən öncə, əcnəbi Azərbaycan Respublikasında təsis edilmiş və təsisçisi və ya təsisçilərdən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxsin rəhbəri və onun müavini vəzifəsini tutduqda ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazənin alınması məqsədilə müraciət edə bilərdisə, yeni qanun qüvvəyə mindikdən sonra Azərbaycanda təsis edilmiş və ödənilmiş nizamnamə kapitalı İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş miqdardan az olmayan xarici investisiyalı hüquqi şəxsin rəhbəri və ya həmin hüquqi şəxsin paylarının (səhmlərinin) azı 51 faizinə sahib olan təsisçisi müvəqqəti yaşamaq icazəsinin alınması üçün müraciət edə bilər.

Miqrasiya Məcəlləsinin 45.1.7-ci maddəsinə (sahibkarlıq fəaliyyəti ilə məşğul olma) əsasən, müvəqqəti yaşama icazəsinin əldə edilməsi üçün yeni güzəştlər müəyyən edilir. Dəyişiklikdən öncəki şərtlərə əsasən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan əcnəbi müvəqqəti yaşama icazəsi əldə etmək üçün işçilərinin azı 80%-i Azərbaycan vətəndaşı olmaqla azı 5 (və ya natamam iş şəraitində 10) nəfər ilə əmək müqaviləsi bağlamalı (işə götürməli) idi. Dəyişiklikdən sonra, işçilərin azı 80%-i Azərbaycan vətəndaşları ilə yanaşı, həm də daimi yaşama icazəsi olan, Azərbaycan vətəndaşı ilə nikahda olan, himayəsində 18 yaşına çatmamış və ya orqanizmin funksiyalarının 81-100% pozulmasına görə əlilliyi müəyyən edilmiş Azərbaycan vətəndaşı olan, sığınacaq axtaran, insan alverindən zərər çəkmiş hesab edilən və ya cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilər də ola bilər.

Dəyişikliklərə əsasən, daimi yaşama icazəsinə müraciət etməyə hüquq verən daşınmaz əmlakın və banklarda pul vəsaitinin dəyəri (məbləği) 200.000 manat müəyyən edilir, müvəqqəti yaşama icazəsinə müraciət etməyə hüquq verən müvafiq əsaslar üzrə məbləğlər isə dəyişmədən qalır (100.000 manat). Həmçinin nominal dəyəri azı 200.000 manat olan dövlət qiymətli kağızlarına və ya eyni həcmdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslərin investisiya qiymətli kağızlarına malik olan əcnəbilər və ödənilmiş nizamnamə kapitalı İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş miqdardan az olmayan xarici investisiyalı hüquqi şəxsin rəhbəri və paylarının (səhmlərinin) azı 51 faizinə sahib təsisçisi daimi yaşamaq icazəsinin əldə edilməsi üçün müraciət edə biləcək. Nizamnamə kapitalının miqdarı və dövriyyə həcminə dair tələblər qeyri-kommersiya hüquqi şəxslərinə şamil olunmur.

Dəyişikliklərdən öncə, bir əsasla daimi yaşama icazəsi almaq üçün həmin əsas üzrə azı 2 il fasiləsiz müvəqqəti yaşama icazəsi əsasında ölkədə yaşamaq tələb olunurdu. Dəyişikliklərlə, əcnəbi müvafiq əsasla (yaxın qohumluq, investisiya və s.) 2 il fasiləsiz ölkədə yaşadıqdan sonra digər bir müvafiq əsasla daimi yaşama icazəsinin alınması üçün müraciət edə biləcək.

**“Banklar haqqında” Azərbaycan Respublikasının Qanunu**

Sonuncu əlavələrə əsasən, Azərbaycan Respublikasında fəaliyyət göstərən banka müddətli əmanət müqaviləsi əsasında pul vəsaiti qoymaqla Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müddətli əmanəti barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanına Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş hallarda verilir.

**“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu**

Dövlət qiymətli kağızlarına və ya paylarının (səhmlərinin) 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslərin investisiya qiymətli kağızlarına malik olmaqla Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin investisiya qiymətli kağızları, o cümlədən dövlət qiymətli kağızları barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanına Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş hallarda verilir.

JABBARLI LAW FIRM

# İYUN

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

Cinayət Məcəlləsinə 314-4-cü maddə əlavə edilmişdir. Yeni maddəyə əsasən, tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan tikilməkdə olan və ya tikilmiş tikinti obyektlərinin təbii qaz, su, kanalizasiya, elektrik və istilik enerjisi müəssisələrinin vəzifəli şəxsləri tərəfindən mühəndis-kommunikasiya təminatı sistemlərinə qanunsuz qoşulması – 2.000 manatdan 4.000 manatadək miqdarda cərimə və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

JABBARLI
LAW FIRM

+994 55 228 55 00
www.jabbarlilaw.az
info@jabbarlilaw.az
Yusif Səfərov 23A. Bakı